KREDO
№ 24 (1280) 10 sentyabr 2025-ci il

# MAARİF MÜƏLLİM



Həyatıyla gənclərə nümunədir,
Dünya bir yana, o başqa yanədir,
Saflığıyla bəlkə də yeganədir,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Sadiqdir o, kökünə, binasına,
Bu hikməti gərəkdir anlasınlar,
Kitab həsr edib əziz anasına,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Onunla dost olanlar bəxtəvərdir,
O, dost üçün həmişə səfərbərdir,
İlk növbədə böyük vətənpərvərdir,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!

Çatıb uca zirvəyə alimlikdə,
Böyük xidmət edib müəllimlikdə,
Fərqlənib həmişə elmdə, bilikdə,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Sevimli babasıdır nəvələrin,
Onları sevir o, dərindən dərin,
Etalonudur o, kişinin, ərin,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Sevgiylə yanaşır o, təbiətə,
Daima malikdir xoş bir niyyətə,
O çox lazımdır bizim cəmiyyətə,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
İsmayıllının layiqli oğludur,
Həyatda nə danışırsa, doğrudur.
Onun adı bədxahlara qorxudur,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!

Həm yeyib, həm qazanıb halal çörək,
Bununla da çoxuna olub örnək,
İstərik ancaq şad gününü görək,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Məşəqqətli keçibdir uşaqlığı,
O vaxtdan qazanıb üzüağlığı,
Arzulayırıq ona can sağlığı,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Bəzz haqqında kitab müəllifidir,
O kitab özü onun təltifidir,
Onu sevməyən ilanlar əfidir,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Həyat yolunda gülüb, həm ağlayıb,
Nəzakət xanımla bir addımlayıb,
Beləliklə, o, səksəni haqlayıb,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Onunla dost olmaq özü şərəfdir,
O həmişə, hər vaxt haqqa tərəfdir,
Həm layiqli sələf, həm də xələfdir,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Yol yoldaşlığı ayrı bir aləmdir,
Əlində tutduğu daim qələmdir,
Elə bil qaranlıqda yanan şəmdir,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Yazıb çox ətraflı tərcümeyi-hal,
Elə bil qələmindən süzülüb bal,
Həmin kitan oxunmalıdır dərhal,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Adında var elmə, biliyə dəvət,
Edə bilir hər kəslə şirin söhbət,
Çoxları bəsləyir ona məhəbbət,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
O böyüdüb üç layiqli övladı,
Onların üstündədir təmiz adı,
Birləşdirə bilər doğmanı, yadı,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Çox zəhmət çəkib düzlüyün uğrunda,
Dostların görüb sağında, solunda,
Çalışıb həm də dövlət qulluğunda,
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Gəlib çatıb artıq yetmiş beş yaşa,
Arzumuzdur ona: Azı yüz yaşa!
Və şərəflə vur uzun ömrü başa!
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!
Faiq xoşbəxtdir onu tanımaqla,
Belə dost çətin gələ bilər ağla,
Ona arzum: Sükanı belə saxla!
Tərif sevməyən Maarif müəllim,
Ariflərdən də arif Maarif müəllim!

***1 - 2 iyul 2025***

FAİQ BABA